ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.3.2025.3025

# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATINA AYRILAN SUBSİDİYALARIN EFFEKTİVLİYİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

Famil Vəli oğlu Rüstəmov

## XÜLASƏ

**Tədqiqatın məqsədi –** Tədqiqatın əsas məqsədi kənd təsərrüfatında subsidiyaların mahiyyətini, növlərini və tətbiq mexanizmlərini araşdırmaq, Azərbaycanda son illərdə həyata keçirilən subsidiyalaşma siyasətini təhlil edərək, onun effektivliyini qiymətləndirmək və təkmilləşdirmə istiqamətləri üzrə təkliflər irəli sürməkdir.
**Tədqiqatın metodologiyası –** Tədqiqat analitik və müqayisəli təhlil metodlarından istifadə etməklə aparılmış, normativ-hüquqi baza, dövlət statistika komitəsinin məlumatları və aqrar sahədə mövcud subsidiyalaşma mexanizmləri təhlil edilmişdir.
**Tədqiqatın tətbiqi əhəmiyyəti –**Təklif olunan tövsiyələr subsidiyaların daha səmərəli istifadəsinə, dövlət büdcəsinin məqsədyönlü bölüşdürülməsinə və kənd təsərrüfatı istehsalçılarının dəstəklənməsində optimal mexanizmlərin tətbiqinə töhfə verə bilər.
**Tədqiqatın nəticələri –** Araşdırma nəticəsində məlum olmuşdur ki, Azərbaycanda kənd təsərrüfatı subsidiyalarının həcmi və əhatə dairəsi artmasına baxmayaraq, bu dəstəyin nəticəliliyi hələ də istənilən səviyyədə deyil. Yeni subsidiya mexanizmlərinin tətbiqi ilə bağlı bəzi qeyri-müəyyənliklər və suallar mövcuddur. Subsidiyaların daha effektiv idarə olunması üçün konkret təkliflər irəli sürülmüşdür.
**Tədqiqatın elmi yeniliyi –** Tədqiqatda 2020-ci ildən tətbiq olunan yeni subsidiya mexanizminin və 2025-ci ildə edilən dəyişikliklərin (məhsul siyahısının genişləndirilməsi, əkin əmsallarının artırılması və s.) əhatəli təhlili aparılmışdır. Bununla yanaşı, yaşıl subsidiya təşəbbüsləri və Aqrar Subsidiya Şurasının fəaliyyəti də ilk dəfə olaraq bu səviyyədə sistemli şəkildə qiymətləndirilmişdir.
**Açar sözlər:** subsidiyalar, kənd təsərrüfatı, dövlət dəstəyi, subsidiya mexanizmi, əkin əmsalları, yaşıl subsidiya, Aqrar Subsidiya Şurası, məhsul subsidiyası, aqrar siyasət

## Giriş

Kənd təsərrüfatı sektoru bir çox ölkələr üçün iqtisadi, sosial və strateji baxımdan mühüm əhəmiyyət daşıyır. Əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması, kənd yerlərində məşğulluğun artırılması və regionların balanslı inkişafı kimi məqsədlərə nail olmaq üçün dövlətlər bu sahəyə müxtəlif formalarda müdaxilə edirlər. Bu müdaxilənin ən geniş yayılmış və effektiv üsullarından biri subsidiyalaşdırmadır. Subsidiyalar – dövlətin büdcə vəsaiti hesabına müəyyən fəaliyyət sahələrinə, o cümlədən kənd təsərrüfatı istehsalçılarına təqdim olunan əvəzsiz maliyyə və ya vergi güzəştləridir ki, onların əsas məqsədi bazar uğursuzluqlarını aradan qaldırmaq, strateji məhsul istehsalını stimullaşdırmaq və sosial rifahı qorumaqdır.

Şübhəsizdir ki, kənd təsərrüfatı bazarı müxtəlif risklərə – iqlim dəyişkənliyi, qiymət qeyri-sabitliyi, təbii fəlakətlər və digər qeyri-müəyyənliklərə – daha çox məruz qalır. Bu səbəbdən dövlətlər bu sahədə subsidiya siyasətini tətbiq etməklə həm istehsalçıları risklərdən qorumalı, həm də aqrar sektorun dayanıqlı inkişafını təmin etməlidirlər. Subsidiyalar vasitəsilə fermerlərə məhsul istehsalında motivasiya verilir, texnologiyaların tətbiqi təşviq olunur və kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyəti artırılır.

Azərbaycanda da kənd təsərrüfatının subsidiyalaşdırılması uzun illərdir dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmuşdur. 2020-ci ildən tətbiqinə başlanılan yeni susidiya mexanizmi subsidiyaların verilməsində daha şəffaf, ədalətli və nəticəyönlü yanaşmanın tətbiqini nəzərdə tutur.

Əsas müəllif/Corresponding author: Famil Vəli oğlu Rüstəmov, AR ETN, İqtisadiyyat İnstitutu, Aqrar sektorun iqtisadi problemlər şöbəsinin müdiri, i.ü.f.d., dosent

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.3.2025.3025

Bu kontekstdə tədqiqatın əsas məqsədi – kənd təsərrüfatında subsidiyaların mahiyyətini, növlərini və tətbiq mexanizmlərini dərindən araşdırmaq, Azərbaycanın son illərdə həyata keçirdiyi subsidiya siyasətini təhlil etmək və bu siyasətin effektivliyinə dair obyektiv qiymətləndirmə aparmaqdır.

Materiallar və metodlar. Bu tədqiqatda kənd təsərrüfatı sektorunda subsidiyalaşma mexanizmlərinin mahiyyətinin və tətbiq təcrübəsinin araşdırılması məqsədilə müxtəlif məlumat mənbələri və analitik yanaşmalardan istifadə edilmişdir. Araşdırma əsasən tədqiqat üsulu ilə aparılmış, müvafiq normativ hüquqi aktlar, dövlət orqanlarının rəsmi statistik məlumatları və hesabatları təhlil olunmuşdur. Azərbaycan Respublikasının dövlət büdcəsi (2024 və 2025-ci illər üzrə); Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları (xüsusilə yeni subsidiya mexanizmləri ilə bağlı sənədlər, o cümlədən 2020-ci ildən qüvvəyə minmiş mexanizm); Kənd Təsərrüfatı Nazirliyi, Aqrar Subsidiya Şurası, Dövlət Aqrar İnkişaf Agentliyi və Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilən rəsmi hesabat və statistik məlumatlar; Əlavə olaraq, mövcud elmi ədəbiyyat, beynəlxalq təşkilatların (FAO, OECD və s.) aqrar subsidiyalarla bağlı analitik materialları və elmi məqalələr araşdırılmışdır.

Analitik təhlil metodu – Dövlət büdcəsində kənd təsərrüfatı ilə bağlı xərclərin struktur təhlili aparılmış, subsidiyalaşma mexanizmləri və onların tərkib elementləri ayrı-ayrılıqda qiymətləndirilmişdir. Müqayisəli təhlil metodu – Müxtəlif illər üzrə subsidiyalaşma göstəriciləri müqayisə edilərək, dəyişiklik tendensiyaları müəyyənləşdirilmişdir. 2024 və 2025-ci illər üzrə büdcə məlumatları əsasında maliyyələşmədə baş verən dəyişikliklər təhlil olunmuşdur. Normativ-hüquqi təhlil – Subsidiya mexanizmlərinin hüquqi bazası (qanunlar, fərmanlar, qərarlar) təhlil edilmiş, bu mexanizmlərin hüquqi əsasları və institusional çərçivəsi müəyyənləşdirilmişdir. Sistemli yanaşma – Subsidiyaların kənd təsərrüfatı sektoruna təsiri yalnız iqtisadi deyil, həm də institusional və sosial kontekstdə qiymətləndirilmişdir. Bu yanaşma subsidiyaların effektivliyini daha obyektiv şəkildə dəyərləndirməyə imkan verir.

**Nəticələr və müzakirə.** Aparılmış araşdırmalar göstərir ki, son illərdə Azərbaycanda kənd təsərrüfatı sahəsinə dövlət dəstəyi xeyli gücləndirilmiş, subsidiyalaşma siyasəti daha məqsədyönlü və strukturlaşdırılmış şəkildə həyata keçirilməyə başlanmışdır. 2020-ci ildən etibarən tətbiq edilən yeni subsidiya mexanizmi əvvəlki sistemlə müqayisədə daha şəffaf və elektronlaşdırılmış idarəetməyə əsaslanır. Xüsusilə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) vasitəsilə subsidiya müraciətləri və ödənişlərin avtomatlaşdırılması bu sahədə müəyyən irəliləyişlərə gətirib çıxarmışdır.

2024 və 2025-ci illər üzrə dövlət büdcəsi təhlilinə əsasən, kənd təsərrüfatı üçün nəzərdə tutulan vəsaitin həcmi müvafiq olaraq 1 202,6 milyon manat və 1 203,8 milyon manat təşkil etmişdir. Bu vəsaitin təxminən yarısı "kənd təsərrüfatı tədbirləri" maddəsi üzrə nəzərdə tutulmuşdur ki, burada birbaşa subsidiyalar da daxil olmaqla, sahəyə yönəldilən müxtəlif dəstək formaları mövcuddur. Lakin qeyd edilməlidir ki, dövlət büdcəsində "subsidiyalar" ayrıca xərc maddəsi kimi ayrılmadığı üçün onların dəqiq həcmini təyin etmək çətinlik yaradır. Bu isə şəffaflıq və hesabatlılıq baxımından məhdudiyyətlər yaradır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki:

Subsidiyaların əhatə dairəsi artmış, daha çox məhsul və fəaliyyət növləri subsidiya siyahısına daxil edilmişdir (xüsusilə 2025-ci ildə məhsul siyahısının genişləndirilməsi və əkin əmsallarının yenidən nəzərdən keçirilməsi ilə bağlı dəyişikliklər).

Fermerlərin subsidiya alma prosesi sadələşdirilsə də, bölgələrdə informasiya çatışmazlığı və texniki bilik səviyyəsinin aşağı olması nəticəsində bəzi istehsalçılar bu imkanlardan tam faydalana bilmir.

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.3.2025.3025

Yaşıl subsidiya təşəbbüsləri ilkin mərhələdə olsa da, ətraf mühitə təsirin azaldılması və dayanıqlı kənd təsərrüfatının təşviqi baxımından perspektivlidir. Lakin bu sahədə həm maliyyələşmə, həm də maarifləndirmə baxımından ciddi boşluqlar mövcuddur.

Aqrar Subsidiya Şurasının fəaliyyəti, subsidiyaların verilməsində normativ çərçivənin formalaşdırılmasında mühüm rol oynasa da, qərarların praktik təsiri və monitorinq mexanizmləri kifayət qədər effektiv deyil.

Müqayisəli təhlillər göstərir ki, subsidiyaların məbləğ və əhatə baxımından artımı öz-özlüyündə kifayət deyil. Əsas məsələ bu subsidiyaların nəticəyönümlü şəkildə idarə olunması, istehsal səmərəliliyini artırması və fermerlər üçün uzunmüddətli dayanıqlılıq yaratmasıdır. Mövcud sistemin daha çevik və ehtiyaclara uyğunlaşdırılmış formada fəaliyyət göstərməsi üçün monitorinq və qiymətləndirmə mexanizmlərinin gücləndirilməsinə ehtiyac var.

**Şəkil 1. 2018-2025-ci illər üzrə kənd təsərrüfatı büdcəsi və verilən subsidiyalar**




Rəqəmlərdən göründüyü kimi son illər kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən birbaşa subsidiyanın məbləği dövlət büdcəsindən kənd təsərrüfatı istiqaməti üzrə ayrılan xərclərin əhəmiyyətli hissəsini təşkil edir. Bəzi illər üzrə kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən birbaşa subsidiyalar kənd təsrrüfatı xərclərinin 40-45 faizini təşkil etdiyini görürük. (Cədvəl 1)

**Cədvəl 1. 2024-2025-ci illər üçün dövlət büdcəsində kənd təsərrüfatı xərcləri, manat**

| | **2024** | **2025** |
|---|---|---|
| Kənd təsərrüfatı ümumilikdə | 1 202 593 587 | 1 203 805 845 |
| Kənd təsərrüfatı tədbirləri (birbaşa subsidiya ödənişləri) | 546 216 731,0 | 574 499 540 |
| Baytarlıq | 48 458 232,0 | 48 485 983 |
| Meliorasiya | 499 833 624 | 542 683 176 |
| Kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 108 085 000 | 38 137 146 |

Mənbə: Cədvəl Azərbaycan Respublikasının 2024, 2025-ci illər üzrə Dövlət Büdcələri haqqında Qanunlara əsaslanaraq müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi 2025-ci ilin (2024-cü ildə vəziyyət oxşardır) dövlət büdcəsində kənd təsərrüfatı xərclərində melorasiya xərclərini nəzərə almasaq, birbaşa subsidiyanın digər xərclərdə xüsusi çəkisi 73,3 %-dir. Kənd təsərrüfatı tədbirləri üçün nəzərdə tutulmuş xərclərin isə 85%-ə yaxını məhz kənd təsərrüfatı məhsulları istehsalçılarına birbaşa subsidiyalar şəklində verilməsi nəzərdə tutulmuşdur.

**Nəyə görə kənd təsərrüfatı və ya aqrar sahə dövlət tərəfindən dəstəklənməlidir?**

İqtisadiyyat böyüdükcə kənd təsərrüfatı sektorunun cəmi iqtisadi aktivlikdə tutduğu pay getdikcə azalır, kənd təsərrüfatının digər sektorlara münasibətdə sanki nisbi əhəmiyyəti azalmağa başlayır. Hələ XIX-cu əsrin ortalarında (1857-ci ildə) Alman iqtisadçı Ernst Engel apardığı tədqiqat və sorğular nəticəsində belə qənaətə gəlmişdi ki, ailələrin gəlirləri aşağı düşdükcə onların ərzaq məhsullarına sərf etdikləri xərclərin xüsusi çəkisi yüksəlir və ya əksinə. Sonralar belə bir əlaqənin mövcudluğu digər iqtisadçılar tərəfindən aparılmış tədqiqatlarla da təsdiq olundu. Həqiqətən də, gəlirlər artdıqda istehlakçılar ərzaq məhsulları üzrə xərcləri artırsalar da bu xərclərin ümumi xərclərdə payı azalır, çünki istehlakçılar digər məhsullar üzrə xərcləri daha sürətlə artırırlar. Tələb-təklif qanununa əsasən bu məhsulların qiyməti kənd təsərrüfatı məhsullarına münasibətdə daha sürətlə bahalaşır. Kənd təsərrüfatının xeyli sayda sənaye məhsulları idxal eləməsi təbii ki, fermerlərin xərclərinin gəlirlərindən daha sürətlə artmasına gətirib çıxarır. Bu da uzunmüddətli dövrdə fermerlərin gəlirlərinin azalmasına, sahəyə investisiyaların məhdudlaşmasına və sektorun rəqabət qabiliyyətliliyi aşağı düşməsinə səbəb ola bilir. Beləliklə, kənd təsərrüfatı istehsalçılarının itkilərini kompensasiya etmək və sahənin investisiya cəlbediciliyini artırmaq, ən azından sahəni ayaqda saxlamaq üçün bu istiqamətdə dövlətin müdaxiləsinə və dəstəyinə ehtiyac yaranır.

**Kənd təsərrüfatının subsidiyalaşdırlmasında beynəlxalq təcrübə.**

Dünyanın bir çox ölkəsində kənd təsərrüfatı məhsulları istehsalçılarına subsidiyalar verilir. Bu subsidiyalar əsasən fermerlərin gəlirinin sabitliyini, ərzaq təhlükəsizliyini təmin etmək və aqrar istehsalçıların rəqabətqabiliyyətliyini yüksəltmək məqsədi daşıyır. Avropa İttifaqı (Aİ) ölkələrində ortaq kənd təsərrüfatı siyasəti (Common Agricultural Policy - CAP) çərçivəsində təsərrüfatı məhsulları istehsalçılarına birbaşa ödənişlər formasında subsidiyalarla yanaşı, ətraf mühitin qorunması, qiymət dəstəyi, sığorta subsidiyaları, kənd yerlərinin inkişafı ilə bağlı da dəstək tədbirləri həyata keçirilir. Aİ ölkələrində kənd təsərrüfatı sahəsində subsidiya siyasəti daha çox Ümumdünya Ticarət Təşkilatının (ÜTT) bu sahədəki qaydalarına uyğunlaşdırılmışdır. Bu qaydalarda fermerlərə göstərilən dəstəklər 3 səbətə - yaşıl səbət (green box), mavi səbət (blue box) və kəhrəba səbətə (amber box) bölünmüşdür. Yaşıl səbətə bazarıvə qiymətləri təhrif etməyən subsidiyalar, elmi tədqiqat işləri, infrastrukturun qurulması, ətraf mühitin qorunması və s. üzrə subsidiyalar daxildir. Bu səbət üzrə verilən subsidiyaların həcmi məhdudlaşdırılmır, yəni bu istiqamətlər üzrə istənilən qədər subsidiya vermək olar. Mavi səbətə məhsul istehsalı ilə bağlı olmayan, hektar başına və heyvan sayına görə ödənilən subsidiyalar daxildir ki, bu subsidiyalar istehsal həcminə qoyulan kvotalar və əkin sahəsinin bir hissəsinin dincə qoyulması tələbləri ilə müşayiət olunur. Bu tip subsidiyalar müəyyən hədd daxilində verilir. Kəhrəba səbətə daxil olan subsidiyalar daha ciddi tənzimlənir. Buraya irbaşa məhsul istehsalının artırılması ilə bağlı olan subsidiyalardır daxildir. Qeyd edək ki, 2015-ci ildən ÜTT qaydalarına əsasən üzv ölkələrdə ixrac subsidiyası qadağan edildi və bundan sonra bir çox ölkələr ayrı-ayrı məhsullar üzrə bazar qiymət dəstəyini daha az təhrifedici tədbirlərlə əvəz etməyə başladılar.

ÜTT kənd təsərrüfatında bazar təhrifinin qarşısını almaq və rəqabət şəraitini tənzimləmək məqsədilə üzv ölkələrə sarı qutu subsidiyalarını məhdudlaşdırmaq, yaşıl və bəzən mavi qutuya üstünlük vermək tövsiyə edir. Bu çərçivə subsidiyaların beynəlxalq ticarətə mənfi təsirinin azaldılmasına yönəlib.

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.3.2025.3025

Azərbaycanın ÜTT ilə əlaqəli subsidiyalaşma siyasəti Azərbaycan Respublikası ÜTT-yə üzv olmasa da, 1997-ci ildən etibarən bu qurumla üzvlük üzrə danışıqları davam etdirir. Bu müddət ərzində Azərbaycanın kənd təsərrüfatı siyasətində müəyyən uyğunlaşdırma meylləri müşahidə olunur. Əsas məqsədlərdən biri – daxili dəstək tədbirlərinin ÜTT-nin kənd təsərrüfatı üzrə prinsiplərinə uyğunlaşdırılmasıdır (WTO,1995).

Hazırda ölkədə tətbiq edilən əkin subsidiyaları, texniki dəstək, maarifləndirmə və infrastruktur layihələrinə yönəlmiş yardım proqramları əsasən yaşıl qutuya uyğun hesab oluna bilər. Bununla belə, məhsul başına və ya istehsalla əlaqəli subsidiya modellərinin (məsələn, buğda istehsalı üzrə xüsusi subsidiya) ÜTT-nin sarı qutu meyarlarına uyğun gəldiyi ehtimal olunur. Bu isə gələcək üzvlük zamanı danışıqlarda əsas müzakirə predmetlərindən biri ola bilər.

Bundan əlavə, ÜTT üzvlüyü fonunda şəffaflıq, hesabatlılıq və nəticəyönümlü subsidiyalaşma mexanizmlərinin tətbiqi Azərbaycanın kənd təsərrüfatı siyasətinin beynəlxalq standartlara uyğunlaşdırılması baxımından əhəmiyyətlidir.

Amerika Birləşmiş Ştatlarında Farm Bill adlı qanun paketi ilə hər 5 ildən bir subsidiyalar yenilənir. ABŞ-da 5 kənd təsərrüfatı bitkisi- qarğıdalı, soya, buğda, pambıq və çəltik subsidiyalar vasitəsilə daha ciddi şəkildə dəstəklənir. Qarğıdalı və soyanın hər hektarına görə təxminən 100-200 ABŞ dolları, buğda üçün 50-100 ABŞ dolları, pambıq üçün 300 ABŞ dolları, çəltik üçün isə 300-500 ABŞ dolları civarında subsidiya ödənilir.

Regional ixtisaslaşmanın təmin edilməsi prinsipi əsas götürülən Türkiyədə də bir sıra məhsullara görə əkin subsidiyası verilir. Burada kənd təsərrüfatı sahəsi üzrə dövlət dəstəynin əsas istiqamətləri bitkiçilik məhsulları istehsalı, sığorta və kənd yerlərinin inkişafıdır.

**Azərbaycanda kənd təsərrüfatının subsidiyalar vasitəsilə dəstəklənməsinin mövcud vəziyyəti**

Ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalçılarının subsidiyalar vasitəsilə aktiv şəkildə dəstəklənməsinə 2007-ci ildən etibarən hər hektar əkin sahəsi üzrə 40 manat məbləğində subsidiya verilməsi ilə başlanıldı. Buğda əkinlərinin stimullaşdırılması məqsədilə əlavə olaraq hər hektar buğda əkini üçün 40 manat subsidiya təyin edildi. Eyni zamanda fermerlərə mineral gübrələrin güzəştli qiymətə (dəyərinin 50%-i) satışını təmin etmək üçün subsidiya müəyyən olundu . Bir neçə il sonra isə subsidiyaların verilməsində vacib addım atıldı və ilk dəfə olaraq məhsula görə subsidiyanın verilməsinə başlanıldı. İlkin olaraq bu mexanizm pambıq, tütün, şəkər çuğunduru və baramaya şamil edildi. Bununla da, istehsalçılara emal müəssisələrinə təhvil verdikləri xam pambığın, quru və yaş tütünün hər kiloqramına görə, şəkər çuğundurunun hər tonuna görə subsidiya verilməyə başlanıldı.

Keçən 20 ilə yaxın dövr ərzində kənd təsərrüfatı istehsalının subsidiyalaşması mexanizmi xeyli təkmilləşdir. 27 iyun 2019-cu il tarixində Azərbaycan Respublikası Prezidenti Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında Fərman imzalamışdır. “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası” da bu fərmanla təsdiq edilmiş və 2020-ci il yanvarın 1-dən etibarən tətbiqinə başlanılmışdır (Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 27 iyun 2019-cu il, № 759). O zamana qədər isə subsidiyalar fermerlərə nağd formada təqdim edilirdi və bu prosesdə yerli icra strukturları yaxından iştirak edirdi. Bu isə bəzi neqativ məqamların otraya çıxmasına səbəb olurdu. Yeni subsidiya mexanizminin tətbiqindən sonra fermerlərə subsidiya kartları verildi və subsidiyal qeyri-nağd formada ödənilməyə başlanıldı. Kənd təsərrüfatı məhsullarının istehsalçılarına subsidiyaların verilməsinə dair müraciətlərin elektron qaydada qəbulunu, emalını və cavablandırılmasını, bu sahədə şəffavlığı və operativliyi təmin etmək məqsədi ilə “Elektron kənd təsərrüfatı” informasiya sisteminin, eləcə də EKTİS-in altsistemi olan “Subsidiya” informasiya sisteminin əsası da bu Fərmanla qoyulmuşdur. Qəbul edilmiş Qaydaya əsasən bitkiçilik sahəsində subsidiyaların hesablanmasında istifadə olunan baza məbləği 200 (iki yüz) manat müəyyən edilmiş və indiyə

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.3.2025.3025

qədər də dəyişilməz olaraq saxlanılmışdır. Subsidiya məbləğlərinin tənzimlənməsi isə əmsallar vasitəsi ilə həyata keçirilməkdədir. Subsidiyaların tətbiqi ilə bağlı qərarlar kollegial orqan olan Aqrar Subsidiya Şurası tərəfindən qəbul edilir. Şura hər il yanvarın 15-dək regionlar üzrə bitkilərin siyahısını və onlara tətbiq edilən əkin əmsallarını, dincə qoyulmuş torpaq subsidiyasının tətbiqi üçün ərazilərin siyahısını, həmin ərazilərin ardıcıl becərilmə dövrlərinin və onlara tətbiq edilən dincə qoyulmuş torpaq əmsallarını, məhsul subsidiyasının tətbiqi üçün bitkiçilik məhsullarının siyahısını və onlara tətbiq edilən əmsalları təsdiq edir (Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 27 iyun 2019-cu il, № 759). Qeyd edək ki, istifadəsində olan 50 hektardan çox torpaq sahəsində aparılan əkinə və ya çoxillik əkməyə görə kənd təsərrüfatı kooperativlərinə əkin subsidiyası 10 faiz artırılmaqla tətbiq edilir. Onu bildirək ki, EKTİS-də qeydiyyatdan keçməyənlər subsidiya mexanizmindən faydalana bilməzlər, hazırda 600 mindən yuxarı kəndli və fermer qeydiyyatdan keçmişdir. Yeni mexanizmə görə 10 hektar və daha çox sahə üzrə əkin subsidiyası əldə etmək üçün bitki sığortalanmalıdır. Artıq bu ildən tətbiq edilən yeniliklərə əsasən istehsalda müassir suvarma sistemləri tətbiq edən fermerlər fərqləndirilir. Beləki, onlar ənənəvi suvarma sistemlərindən istifadə edən həmkarlarından 60 manat daha çox subsidiya ala biləcəklər. İşğaldan azad edilmiş ərazilərimizdə isə dənli, dənli və paxlalı bitkilər üzrə müassir suvarma sistemləri ilə təhciz olunmuş təsərrüfat sahibləri 400 mant, ənənəvi suvarma ilə əkin işləri görən fermerlər isə 140 əkin subsidiyası alacaqlar. Göründüyü kimi, işğaldan azad edilmiş ərazilərdə müassir suvarma sistemlərinin tətbiqi daha ciddi şəkildə təşviq olunur.

**Şəkil 2.**




Şəkildən göründüyü kimi 2025-ci ildə dövlət büdcəsindən subsidiyaların maliyyələşməsi məqsədilə 484,5 milyon manat vəsaitin xərclənməsi nəzərdə tutulmuşdur ki, bu da 2007-ci ildə bu istiqamətdə xərclənmiş vəsaitdən 10,5 dəfə çoxdur.

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.3.2025.3025




Son illər aqrar istehsalçılara verilən subsidiyaların strukturuna diqqət yetirsək görərik ki, əkin subsidiyası hələ də ümumi subsidiya məbləğində əhəmiyyətli paya malikdır. Belə ki, 2023-cü ildə kənd təsərrüfatı istehsalçılarına verilən subsidiyaların 62%-i və ya 279,3 milyon manatı fermerlərə əkin subsidiyası formasında verilmişdir. 2023-cü il üçün ölkədə aqrar subsidiyanın 18%-i və ya 81.1 milyon manatı texnika satışına görə təqdim edilən güzəştlərin, 16%-i və ya 71 .9 milyon manatı məhsul subsidiyasının, yalnız 4%-i və ya təqribən 18 milyon manatı heyvan və toxum subsidiyasının (müvafiq 3% və 1%) payına düşmüşdür.

**Cədvəl 2. Əkin subsidiyasının həcmi, 2023-cü il**

| Məhsul | Əkin sahəsi, hektar | Fermer sayı, nəfər | Subsidiya məbləği, manat |
|---|---|---|---|
| Buğda | 482118 | 147472 | 105 912 744 |
| Digər dənli və paxlalılar | 472442 | 147209 | 98 663 206 |
| Meyvə | 60499 | 29168 | 29 700 517 |
| Qərzəkli meyvələr | 50479 | 33648 | 17 430 721 |
| Günəbaxan | 16342 | 3769 | 3 367 291 |
| Tərəvəz | 13393 | 8319 | 3 074 205 |

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.3.2025.3025

| | | | |
|---|---|---|---|
| Kartof | 12145 | 9543 | 3 048 637 |
| Üzüm | 8869 | 2686 | 2 986 161 |
| Çəltik | 5929 | 1205 | 1 662 020 |
| Bostan | 7498 | 4048 | 1 641 609 |
| Sorqo | 6673 | 2399 | 694 800 |
| Giləmeyvə | 1233 | 1174 | 621 887 |
| Çay | 590 | 57 | 278 519 |
| Soya | 706 | 149 | 146 045 |
| Zəfəran | 87 | 53 | 38 225 |
| Yer findığı | 74 | 33 | 16 264 |
| Qarabaşaq | 0 | 1 | 57 |
| Digər bitkilər | 142059 | 84531 | 9 983 253 |
| **Cəmi** | **1 281 134** | **475 464** | **279 266 164** |

Mənbə: Kənd Təsərrüfatı Nazirliyi

Cədvəldən də göründüyü kimi 2023-cü ildə verilmiş 279 milyon manat əkin subsidiyasının 105,9 milyon manatı və ya təxminən 38%-i buğda əkinlərinə görə verilmişdir. Bütövlükdə isə dənli və dənli paxlalı bitkilərə görə verilmiş əkin subsidiyasının məbləği ümumi əkin subsidiyasının 73,3%-ni (204,6 mily.m.) təşkil etmişdir. 2023-cü ildə 180 milyon dollardan çox tərəvəz, 30 milyon dollardan çox kartof ixrac eləsək də bu tərəvəz və kartof əkinlərinə görə müvafiq olaraq 3 milyon manat subsidiya verilmişdir. Nəzərə alsaq ki, tərəvəz (açıq sahədə) və kartof əkinlərinə görə verilən subsidiyaların bu bitkilərin becərilməsinə çəkilən xərclərdə payı 5 faizi keçmir, düşünürük ki, bu məhsullar üzrə subsidiyalaşma mexanizminə yenidən baxılmalıdır. Eləcə də bostan məhsulları və üzümdə də verilən subsidiyaların xərclərdə payı 5-6 faizi keçmir.

**Cədvəl 3. Azərbaycanda məhsul subsidiyası statistikası, 2023-cü il**

| Bitki növləri | Fermer sayı, nəfər | Subsidiya məbləği, manat | Faktiki çəkisi, ton |
|---|---|---|---|
| Ərzaqlıq buğda | 18 | 12 659 098 | 84 269 |
| Şəkər çuğunduru | 105 | 3 686 844 | 204 825 |
| Yaş tütün | 194 | 1 013 863 | 29 819 |
| Quru tütün | 235 | 930 061 | 4 650 |
| Pambıq | 15 449 | 53 585 222 | 282 330 |
| **Cəmi** | **16 001** | **71 875 088** | **605 894** |

Mənbə: Kənd Təsərrüfatı Nazirliyi

Son illər aparılan islahatların nəticəsi olaraq görürük ki, məhsul subsidiyasının siyahısı ilbəil genişlənir. Bu olduqca müsbət, təqdirəlayiq haldır. 2025-ci ildə pambıq, soya, şəkər çuğunduru və tütün bitkiləri üzrə yalnız məhsul subsidiyası veriləcək. Bu ildən qarğıdalı və günəbaxan üzrə həm əkin, həm də məhsul subsidiyası veriləcək. Fermerlər qarğıdalı bitkisi üzrə məhsul subsidiyasını yalnız istehsal etdikləri qarğıdalını qarğıdalı yağı, nişasta, qlükoza və fruktoza istehsal edən müəssələrə təhvil verdikləri halda ala biləcəklər. Məhsul subsidiyasının məbləği təhvil verilən məhsulun hər tonuna görə 50 manat müəyyən edilmişdir. 2025-ci ildən pambıq, şəkər çuğunduru, tütün və soya üzrə məhsul subsidiyaları müasir suvarma sistemlərinin

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.3.2025.3025

tətbiqi baxımından fərqləndirilib. Belə ki, istehsalda müassir suvarma sistemləri tətbiq edən fermerlər pambığın hər tonuna görə əlavə 15 manat, yaş tütünün hər tonuna görə əlavə 2 manat, quru tütünün hər tonuna görə 20 manat, şəkər çuğundurunun hər tonuna görə əlavə 1 manat, soyanın hər tonuna görə əlavə 20 manat məhsul subsidiyası ala biləcəklər. Onu da qeyd edək ki, buğda üzrə məhsul subsidiyasını yalnız müasir suvarma sistemləri tətbiq edən, buğda istehsalı ilə bağlı Kənd Təsərrüfatı Nazirliyi ilə bağlanmış müqavilə əsasında öhdəlik götürmüş, istehsal etdikləri buğdanı Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən hüquqi və fiziki şəxslər ala bilərlər (Aqrar Xidmətlər Agentliyi, 2024).

Müşahidələrimiz onu da deməyə əsas verir ki, son illər iri təsərrüfatçılıq formaları, yaşıl təşəbbüslər subsidiyalar vasitəsilə daha fəal dəstəklənir. Bu ildən 50 hektardan çox torpaq sahəsi olan kooperativlərə 10% artıq subsidiya veriləcək. Əksər bitki növləri üzrə əkin subsidiyası əmsalları müasir suvarma sistemləri üçün daha yüksək olacaq. Bundan əlavə, yalnız suvarılan ərazilərdə aparılan təkrar əkinlər subsidiyalar vasitəsi ilə dəstəklənəcək. Eyni zamanda deqradasiyanın, səhralaşmanın qarşısının alınması məqsədi ilə bu ildən etibarən hər hektarda minimum 1500 tingin əkildiyi zolaqlar üçün 1000 manat birdəfəlik subsidiyanın verilməsi də nəzərdə tutulmuşdur. Qeyd edək ki, məhsul və əkin subsidiyası ölkədə kənd təsərrüfatı bitkilərinin rayonlar üzrə ixtisaslaşmasını təmin edəcək şəkildə verilir.

Meyvə bağları üçün verilən subsidiyaların məbləği ilbəil artırılmaqdadır. Bunun səbəbi, bu bağların salınması üçün tələb olunan ilkin investisiya qoyuluşunun yüksək olması, həmçinin meyvəçiliyin geniş ixrac potensialının mövcudluğudur. Məlumat üçün bildirək ki, 2023-cü ildə ölkəmizdən 500 milyon ABŞ dollarından çox meyvə məhsulu ixrac olunmuşdur. 2024-cü ildə ölkəmizdən ən çox ixrac edilən meyvə-tərəvəz məhsulu olan pomidordan sonra ölkəmizdən ən çox ixrac edilən ikinci meyvə-tərəvəz məhsulu qabığı təmizlənmiş meşə fındığıdır. 2024-cü ildə xaricə 126,6 milyon ABŞ dolları dəyərində fındıq ixrac edilib ki, bu da ümumi meyvə-tərəvəz ixracının 17,9%-ni təşkil edib. Bu siyahıda 3-cü yerdə xurmadır. 2024-cü ildə ölkəmizdən 113,6 milyon ABŞ dolları dəyərində xurma ixrac edilib ki, bu da ümumi meyvə-tərəvəz ixracının 16,06%-ni təşkil edib ( https://qafqazinfo.az/news/detail/azerbaycan-almaniyaya-21-835-090-dollarliq-meyve-terevez-ixrac-edib-464978).

1 hektara minimum 650 ədəd vegetativ calaqaltı tingin əkildiyi alma, armud, gilas, albalı, gavalı, şaftalı (nektarin), ərik və alça bağları, 1 hektara minimum 450 ədəd tingin əkildiyi xurma və nar bağları, 650 ədəd tingin əkildiyi limon, kinkan, portağal, naringi və feyxoa bağları, 1 hektara minimum 330 ədəd ocağın olduğu fındıq bağları, 1 hektara minimum 278 ədəd vegetativ calaqaltı tingin əkildiyi badam bağları, minimum 238 ədəd tingin əkildiyi qoz bağları, 1 hektara minimum 330 ədəd tingin əkildiyi əzgil, zoğal, iydə, əncir, zeytun bağları damcı suvarma sistemi ilə təmin olunduğu halda Aqrar Subsidiya Şurasının qərarına əsasən intensiv meyvə bağları hesab olunurlar. 2024-cü ilin sentyabrın 1-dən dekabrın 31-dək salınmış intensiv fındıq bağlarının hər hektarına görə 4400 manat, intensiv nar bağlarının hər hektarına görə 3000 manat, intensiv zeytun bağlarının hər hektarına görə 5600 manat məbləğində əkin subsidiyası veriləcəkdir. Subsidiya veriləcək digər meyvə bağlarında 1 hektara əkilmiş tinglərin minimum sayının 90 ədəd olması şərti müəyyənləşib.. Aqrar Subsidiya Şurasının qərarına əsasən cari təsərrüfat ilində zeytun bağının salınmasına görə əkin subsidiyasının verilməsi üçün minimum hədd 15 hektar müəyyən edilmişdir ki, növbəti təsərrüfat ilində bu rəqəmin 50 hektara qaldırılması nəzərdə tutulur (Aqrar Xidmətlər Agentliyi, 2024).

Hazırda ölkəmizdə kənd təsərrüfatının heyvandarlıq sahəsi subsidiyalar vasitəsilə əsasən 2 istiqamət üzrə dəstəklənir. Həmin istiqamətlərdən biri təsərrüfatlarının cins tərkibinin yaxşılaşdırılması məqsədilə xarici ölkələrdən safqanlı damazlıq cins heyvanların idxalı və fermerlərə güzəştli qiymətlərlə satışının həyata keçirilməsi, digər istiqamət isə süni mayalanma yolu ilə alınan hər bir baş sağlam buzova və balağa görə verilən 100 manat subsidiyadır.

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.3.2025.3025

Ölkəmizdə baramaçılıq da subsidiyalar vasitəsilə dəstəklənir. Tədarükçülər təhvil verdikləri hər kiloqram yaş baramaya görə ümumilikdə 11 manat məbləğində vəsait əldə edirlər ki, onun da 6 manatını, yəni yarıdan çoxunu subsidiya məbləği təşkil edir.

Qeyd etmək istərdik ki, ərzaqlıq buğda üzrə dövlət dəstəyi ilə bağlı hazırda tətbiq olunan dəstək mexanizmində müəyyən uyğunsuzluqlar müşahidə olunur, buğda istehsalına dəstək verilərkən idxalın asanlaşdırılması ziddiyyət yaradır Ərzaqlıq buğda idxalın rüsumdan azad olması yerli istehsalçılar üçün əlverişsiz rəqabət şəraiti yaradır. Hesab edirik ki, hədəflər konkretləşdirilməlidir. Ərzaqlıq buğdaya olan tələbatın daxili istehsal hesabına ödənilməsinə üstünlük veriləcəksə buğda idxalına rüsum tətbiq olunmalıdır. Buğdaya olan tələbatın idxal hesabına ödənilməsi məqbul hesab olunursa 1 illik istehlak həcmləri səviyyəsində buğda ehtiyatı toplanmalıdır. Dövlət Statistika Komitəsinin məlumatlarına görə 2023-cü ildə Azərbaycanda ümumilikdə 1 milyon 184,406 min ton təzə çörək istehlak edilib ki, bu da adambaşına orta hesabla 116,3 kiloqram təzə çörək istehlakı deməkdir (Report İnformasiya Agentliyi, 29 avqust 2024). Təqribi hesablamalarımıza görə bu qədər çörək istehsalı üçün maksimum 1,2 milyon ton buğda yetərlidir. 2023-cü ildə 1,175 milyon ton buğda, 72 min ton buğda unu, 2024-cü ildə isə 1,292 milyon ton buğda, 20 min tona yaxın isə buğda unu idxal elədiyimizi, eləcədə 2023-cü ildə buğda üzrə məhsul subsidiyasından yararlanan fermerlər tərəfindən Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına cəmi 84 min ton buğda təhvil verildiyini nəzərə alsaq, ölkədə istehsal olunan çörəyin böyük bir qismi idxal olunan buğdanın payına düşür.

**Cədvəl 4. 2023-cü ildə buğda və buğda unu idxalı**

| Mallar | Ölkələr | Miqdarı | Məbləği, min ABŞ dolları |
|---|---|---|---|
| **Buğda, min ton** | **Cəmi** | **1 175,3** | **303 983,1** |
| | Rusiya | 1 022,1 | 252 091,9 |
| | Qazaxıstan | 152,4 | 51 077,9 |
| | Digər ölkələr | 0,8 | 813,3 |
| **Buğda unu, ton** | **Cəmi** | **71 955,0** | **20 792,0** |
| | Rusiya | 71 780,5 | 20 607,0 |
| | Türkiyə | 135,6 | 119,9 |
| | İtaliya | 16,8 | 37,3 |
| | Fransa | 9,2 | 13,1 |
| | Belarus | 6,2 | 3,6 |
| | Digər ölkələr | 6,7 | 11,1 |

Mənbə: Dövlət Statistika Komitəsi

Dövlət Ehtiyatları Agentliyindən verilən məlumat görə ölkəmizdə buğda ehtiyatı adən 4 aylıq istehlak həcmləri civarında olur. Rəsmi rəqəmlərdən də göründüyü kimi idxal elədiyimiz buğdanın böyük bir qismini Rusiya Federasiyasından idxal edirik. Son illər dünyada baş verən geosiyasi proseslər, Rusiyanın qeyri-sabit siyasi və iqtisadi tərəfdaş olduğunu da bura əlavə eləsik, əminliklə söyləyə bilərik ki, buğda ehtiyatlarının həcmini xeyli artırmalıyıq. Bu mənada Çin nümunəsi bizim üçün faydalı ola bilər. Məlumat üçün bildirək ki, Çinin Sinxua xəbər agentliyinin verdiyi məlumata görə son iki ildə ölkədə taxıl alışının təşkili və əlaqələndirilməsinin gücləndirilməsi, fermerlər üçün taxıl satışı kanallarının sadələşdirilməsi üçün həyata keçirilən çoxsaylı tədbirlər nəticəsində dövlət ehtiyatları üçün tədarük edilən buğdanın həcmi 400 milyon tonu ötmüşdür. 2024-cü ildə dövlət taxıl ehtiyatı müəssisələri

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.3.2025.3025

fermerlərdən və istehsalçılardan təxminən 420 milyon ton buğda tədarük etmişlər. Dövlət Ərzaq və Material Ehtiyatları İdarəsinin direktoru Liu Huanxinin sözlərinə görə Çinin taxıl anbarlarının tutumu 2014-cü illə müqayisədə 36 faiz artaraq 700 milyon tonu keçmişdir (İnterfax İnformasiya Agentliyi, 27 декабря 2024). Hazırda qlobal buğda ehtiyatının təqribən yarısı Çinin anbarlarında toplanmışdır. Ilkin hesablamalarımıza görə bir il ərzində taxıl əkinlərinə görə verilən subsidiya məbləğinə ölkə ərazisində minimum 500 min ton tutumu olan müasir saxlama anbarı yaratmaq mümkündür.

Kənd təsərrüfatı istiqaməti üzrə verilən subsidiyalar davamlı olaraq artırılsa da, bu sahədə əldə olunan nəticələr arzuolunandan xeyli uzaqdır. Fikirlərimizi Hesablama Palatasının "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinə verdiyi rəy də təsdiq edir (banker.az, 18.11.2024). Rəydə qeyd olunur ki, 2023-cü ildə bitkiçilik sahəsinə verilmiş subsidiyalar 2017-ci illə müqayisədə 2,2 dəfə, hektar başına düşən subsidiya isə 2,4 dəfə artsa da, subsidiya vahidinə düşən bitkiçilik məhsulunun dəyəri 12,2% azalıb. 2025-ci ildə bu istiqamətdə xərclərdə 2024-cü ilin proqnozu ilə müqayisədə 9,4% artım nəzərdə tutulduğu halda, kənd təsərrüfatında istehsalın illik artımının cəmi 0,1 faiz bəndi olması gözlənilir. Əgər subsidiyalar effektiv deyilsə, arzuolunan nəticələrin əldə olunmasına xidmət etmirsə, bu, büdcə vəsaitlərindən qeyri-rasional istifadə edilməsinə və sahənin rəqabət qabiliyyətliliyinin zəifləməsinə gətirib çıxarar.

**Təklif və tövsiyələr.** Aparılan islahat və təkmilləşdirmə işləri bundan sonra da davam etdirilməli və ilk növbədə kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydasında 3.13 və 3.14 bəndlərinə yenidən baxılmalı, 3.17 bəndinin isə ləğv edilməsini təklif edirik. Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydasının 3.13 bəndində qeyd olunur ki, əkin subsidiyası məbləğinin 25 faizindən nağdlaşdırılaraq, 75 faizindən isə əkin üçün kənd təsərrüfatı istehsal vasitələrinin satın alınması, torpaqların aqrokimyəvi analizinin aparılması, aqrotexniki xidmətlərdən istifadə edilməsi, çoxillik əkmələrdə müasir suvarma sistemlərinin və dirəklərin alınması, habelə qurulması üçün istifadə olunur. 3.17 bəndində isə qeyd olunur ki, fermerə verilən subsidiya vəsaiti 2 il ərzində istifadə edilmədikdə, bu barədə ona SMS və elektron poçt vasitəsilə bildiriş göndərildikdən sonra fermer 3 ay ərzində subsidiya vəsaitini istifadə etmədikdə, növbəti il üçün ona subsidiya ödənilmir (Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 27 iyun 2019-cu il, № 759). Düşünürük ki, bu qaydalara yenidən baxılmalı və fermerlərin seçim imkanları genişlənməlidir. Fermerlərə əkin subsidiyası məbləğinin tam nağdlaşdırılması imkanının verilməsi ölkədə rəqabət mühitinin, istehsal vasitələri bazarının daha sürətli inkişafına, subsidiyaların effektivliyinin artırılmasına ciddi təsir göstərəcək. Nağdlaşdırma ilə bağlı qaydaların dəyişilməyəcəyi təqdirdə ən azından fermerlərə sığorta haqlarının subsidiya kartlarında nağdlaşdırılmasına icazə verilməyən hissədən ödənilməsinə icazə verilməlidir.

Əvvəlki illərin nəticələrinə əsaslanaraq fermerlərə avans şəklində subsidiyanın verilməsi onların işini xeyli yüngülləşdirə bilər. Məlum olduğu kimi dekabrın 15-dən sonra təqdim edilən sənədlərlə bağlı ödənişlər növbəti ilin 2-ci rübündə aparılır ki, bu da fermerlərə yazlıq əkinləri zamanında həyata keçirilməkdə əlavə çətinliklər yaradır.

Heyvandarlığın subsidiyalar vasitəsilə daha ciddi dəstəklənməsinə ehtiyac görürük. Tədarük məntəqələrinə verilən südə görə subsidiya verilməsi ilə bağlı Rusiya təcrübəsindən faydalanmaq olar.

Məhsul subsidiyasının təkmilləşdirilməsi subsidiya mexanizminin effektivliyini artıra bilər, xüsusilə də pambıq bitkisi ilə bağlı. Dövlət Statistika Komitəsinin məlumatına görə bu il ölkəmizdə 63,7 min hektar sahədə pambıq əkilib ki, bu da əvvəlki illə müqayisədə 29,5 faiz azalma deməkdir.

Arıçılıq sahəsində subsidiyaların 2020-ci ildən dayandırılması nəticəsində bu sektorun inkişaf dinamikasında yavaşlama müşahidə olunur. Bu baxımdan, arıçılığın spesifikliyini və ekosistemdəki rolunu nəzərə alaraq, bu sahə üzrə subsidiyaların bərpası imkanlarının qiymətləndirilməsi məqsədəuyğun hesab edilə bilər.” Məlumat üçün bildirək ki, arıçılara 2020-2022-ci illərdə, üç il ardıcıl olaraq arı subsidiyası verildi və xeyli müsbət nəticələr əldə olundu. Əgər 2019-cu ildə ölkədə 501 min arı ailəsi varidisə, 2023-cü ildə bu göstərici 656,1 minə qalxdı. 2024-cü ilin əvvəlinə isə ölkədə arı ailələrinin sayı 597,3 minə düşdü. Təbii ki, belə azalmanın yeganə səbəbini arı subsidiyasının verilməməsində görmürük, amma arı subsidiyasının stimullaşdırıcı təsirini də qeyd etməliyik.

**Nəticə.** Kənd təsərrüfatının subsidiyalaşdırılmasının başlıca məqsədi kənd təsərrüfatı məhsullarının istehsalının artırılması, ölkə əhalisinin bu məhsullarla daha dolğun təmin olunması, idxalın daxili istehsalla əvəzlənməsi, ixracın artırılmasıdır və hesab edirik ki, hədəflərə çatmaqda subsidiyaların rolu kifayət qədər genişdir. Odur ki, bundan sonra da subsidiya mexanizmi təkmilləşdirilməli, innovasiyaların stimullaşdırılmasına, orta məhsuldarlıq göstəricilərinin artırılmasına, kənd təsərrüfatının dayanıqlı inkişafına əsaslanmalı və hədəflənməlidir.

## ƏDƏBİYYAT

1. Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı(Elektron resurs] / Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi aktların vahid elektron bazası, Bakı şəhəri, 27 iyun 2019-cu il, № 759, https://e-qanun.az/framework/42750

2. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”nda dəyişiklik edilməsi haqqında Respublikası Prezidentinin Fərmanı [Elektron resurs] / Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi aktların vahid elektron bazası, Bakı şəhəri, 18 may 2020-ci il, № 1026, https://e-qanun.az/framework/45061

3. Azad edilmiş ərazilərdən ixrac edilən məhsullara 100 % logistika subsidiyası tətbiq ediləcək [Elektron resurs] / “Report İnformasiya Agentliyi” 25 aprel 2025
https://report.az/biznes-xeberleri/azad-edilmis-erazilerden-ixrac-edilen-mehsullara-100-logistika-subsidiyasi-tetbiq-edilecek/

4. Aqrar Subsidiya Şurası 2025-ci il üçün subsidiya əmsallarını açıqlayıb [Elektron resurs] / Aqrar Xidmətlər Agentliyinin rəsmi internet səhifəsi, 2024-09-03
http://axa.gov.az/az/news/1053?aqrar-subsidiya-surasi-2025-ci-il-ucun-subsidiya-emsallarini-aciqlayib

5. Aqrar Subsidiya Şurası subsidiya əmsalları ilə bağlı yeni qərarlar qəbul edib [Elektron resurs] / Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin internet səhifəsi, 27 Yanvar 2025
https://www.agro.gov.az/az/news/270125

6. Fikrətzadə, F. "Azərbaycanda kənd təsərrüfatına ayrılan subsidiyaların effektivliyinin qiymətləndirilməsi." [Elektron resurs] / Kənd təsərrifatı iqtisadiyyatı jurnalı, №1 (31), (Yanvar 2020).
https://agroeconomics.az/az/article/13/azerbaycanda-kend-teserrufatina-ayrilan-subsidiyal/

7. Azərbaycan Almaniyaya 22 milyon dollarlıq meyvə-tərəvəz ixrac edib [Elektron resurs] / "Qafqazinfo.az" internet qəzeti 17.03.2025
https://qafqazinfo.az/news/detail/azerbaycan-almaniyaya-21-835-090-dollarliq-meyve-terevez-ixrac-edib-464978

8. Hesablama Palatası deyir ki, kənd təsərrüfatına verilən subsidiyalar arzuolunan nəticə vermir [Elektron resurs] / **“**banker.az**”** saytı 18.11.2024

https://banker.az/hesablama-palatasi-deyir-ki-kənd-təsərrufatina-verilən-subsidiyalar-arzuolunan-nəticə-vermir/
9. Azərbaycanda çörək istehlakının həcmi açıqlanıb [Elektron resurs] / "Report İnformasiya Agentliyi" 29 avqust 2024-cü il. https://report.az/ask/azerbaycanda-corek-istehlakinin-hecmi-aciqlanib/
10. Закупки зерна в госрезерв Китая достигнут 420 млн тонн в 2024 году [Elektron resurs] / "İnterfax İnformasiya Agentliyi" 27 декабря 2024 https://www.interfax.ru/world/1001017
11. World Trade Organization. (1995). Agreement on Agriculture. Retrieved from [https://www.wto.org/english/docs_e/legal_e/14ag.pdf](https://www.wto.org/english/docs_e/legal_e/14-ag.pdf )

## DIRECTIONS FOR INCREASING THE EFFICIENCY OF SUBSIDIES ALLOCATED TO AGRICULTURE IN AZERBAIJAN

**Purpose of the research** – The main objective of the research is to explore the essence, types, and implementation mechanisms of agricultural subsidies, to analyze the subsidy policies implemented in Azerbaijan in recent years, evaluate their effectiveness, and propose recommendations for improvement.
**Research methodology** – The study was conducted using analytical and comparative analysis methods. It involved examining the normative-legal framework, data from the State Statistical Committee, and existing subsidy mechanisms in the agricultural sector.
**Practical significance of the research** – The proposed recommendations can contribute to the more efficient use of subsidies, targeted allocation of the state budget, and the implementation of optimal support mechanisms for agricultural producers.
**Research findings** – The research revealed that despite the increase in the volume and scope of agricultural subsidies in Azerbaijan, their effectiveness is still below the desired level. There are certain ambiguities and questions regarding the implementation of new subsidy mechanisms. Specific recommendations have been made to enhance the effective management of subsidies.
**Scientific novelty of the research** – The study provides a comprehensive analysis of the new subsidy mechanism introduced in 2020 and the changes implemented in 2025 (such as the expansion of the product list and increase in cultivation coefficients). Additionally, for the first time, green subsidy initiatives and the activities of the Agricultural Subsidy Council are systematically evaluated at this level.
**Keywords:** subsidies, agriculture, state support, subsidy mechanism, cultivation coefficients, green subsidy, Agricultural Subsidy Council, product subsidy, agrarian policy

## НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ СУБСИДИЙ, ВЫДЕЛЯЕМЫХ НА СЕЛЬСКОЕ ХОЗЯЙСТВО В АЗЕРБАЙДЖАНЕ

**Цель исследования** – Основная цель исследования заключается в изучении сущности, видов и механизмов применения субсидий в сельском хозяйстве, анализе политики субсидирования, реализуемой в Азербайджане в последние годы, оценке её эффективности и выдвижении предложений по её совершенствованию.
**Методология исследования** – Исследование проведено с использованием аналитических и сравнительных методов анализа. Были изучены нормативно-правовая база, данные Государственного комитета статистики, а также действующие механизмы субсидирования в аграрной сфере.
**Практическая значимость исследования** – Предложенные рекомендации могут способствовать более эффективному использованию субсидий, целенаправленному распределению государственного бюджета и применению оптимальных механизмов поддержки сельскохозяйственных производителей.
**Результаты исследования** – В ходе исследования установлено, что несмотря на рост объема и охвата сельскохозяйственных субсидий в Азербайджане, их результативность пока не достигла желаемого уровня. Существуют определённые неопределенности и вопросы, касающиеся внедрения новых механизмов субсидирования. Были предложены конкретные меры по повышению эффективности управления субсидиями.
**Научная новизна исследования** – В работе проведён всесторонний анализ нового механизма субсидирования, введённого с 2020 года, а также изменений, осуществлённых в 2025 году (расширение

перечня продукции, увеличение коэффициентов посевов и др.). Кроме того, впервые на таком уровне системно рассмотрены инициативы «зелёных» субсидий и деятельность Совета по аграрным субсидиям.

**Ключевые слова:** субсидии, сельское хозяйство, государственная поддержка, механизм субсидирования, коэффициенты посевов, зелёные субсидии, Совет по аграрным субсидиям, продуктовая субсидия, аграрная политика

*Məqalə daxil olmuşdur: 16.07.2025*
*Təkrar işləməyə göndərilmişdir: 20.07.2025*
*Çapa qəbul edilmişdir: 03.08.2025*

*Дата поступления статьи в редакцию: 16.07.2025*
*Отправлено на повторную обработку: 20.07.2025*
*Принято к печати: 03.08.2025*

*The date of the admission of the article to the editorial office: 16.07.2025*
*Send for reprocessing: 20.07.2025*
*Accepted for publication: 03.08.2025*